

**İlqar Duman**

*Məmməd Oruca*

İşıq görməsə də çırağın dibi,
Nə yaxşı kənarı çıraqban edir.
Tutumu özündən az olan qabı
Nə əhtac sayarlar, nə də "suvenir"...

Su altda qalmamış "Leylək körfəzi",
Gəzdilər bəhanə tapdılar mahna.
"Atəşkəs yallısı" çalındı bir gün
Sən də bəstələdin "Yadigar mahnı".

Mənim bu sözümü yaddan qaçırma,
"Qatar gecikirdi" dediyin anda,
Yenidən başlasa bax "Köçürülmə"
"Əzrayılla görüş" olacaq onda.

Özünə baxırsan "Qara güzgü"də
İçində bir ağrı bir sızıltı var
Özündən yazırsan bəlkə gizlidə
Aşkara çıxanlar real sayılar.

Əlin düşərlidir dosta, yoldaşa,
Nədən baş olmayır çox vaxt örnəklər
"Murad quşu" qonmaz heç də hər başa
"Ağ qarğa" sayılmaz "Sarı köynək"lər

Deyək "Mübarəkdir" bu yetmiş yaşın
Gözləri tutmasın "Qısa qapanma"...
Səksən də, doxsan da, lap yüz də yaşa
Özünə, sözünə qardaş qapanma.

İşıq görməsə də çırağın dibin
Nə yaxşı kənarı çıraqban edir.
İçi görkəmindən balaca qabı
Nə əhdac bilərlər, nə də "suvenir".

## YOLLAR

Yollar gül saplağıdır,
Başları ləçək bağlar.
Ləçəyin haləsidir,
Evlər, küçələr, bağlar.

Uzun yolu sevmirəm,
O da nahamar ola.
Fikir çözələməkçün
Düzü çıxıram yola.

Yollar qız hörükləri,
Sanası var başında.
Yollardan yarımadıq
Mən hələ bu yaşımda

Qərib üzdə göz yaşı
Cığır olar, yol olar.
Yollar tapdalanmasa
Addımbaşı kol olar.

Yolunu kəsə ellər
Hərdən yada sal məni
Bil ki, əliboş getsən
Getsən əliboş getmə
...Yollar yoracaq səni.

## AXTARACAĞAM

Yaz mənim sevincim, payız qəmimdir
Ahəstə vurmamış qəlbim əzəldən
Yarpaq pıçıltısı susdurub məni,
İnsan sükutuna dözməmişəm mən.

Bir ömür yaşaram, beləcə hər gün
İstərəm qəlblərin dibinə enim
Mən könül eşqinə cana qəsd etdim,
Cismim qul, ürəyim ağamdır mənim.

Demirəm köz idim, qalıbdır külüm,
Demirəm nə arxam, nə də bulağam,
İndi gəncliyimə çatmayır əlim,
Bir vaxtsa bu günü axtaracağam.

## ƏRİK AĞACINA BƏNZƏYİRƏM MƏN...

Göyün qaş-qabağı sallanan vaxtı,
Durub çiçək açdı ərik ağacı.
Buludun dalından əyilib baxdı,
Şaqqıldayıb güldü göy acı-acı.

Əriyin dərd-səri az imiş kimi,
Qulşlar didib-tökür ləçəklərini.
Yaz gəlib əriyin artıb dərd-qəmi,
Qoruya bilməyir çiçəklərini.

Ağac çiçək açdı sevinsin deyə
Külək xəbər verdi: - bu gələn qardı.
Sıxdı acığını ləçəyin üstə,
Ağacın heyfini çiçəkdən aldı.

Müjdə olsun deyə gələn bahardan
Ərik çiçək açıb sevincək oldu.
Sazağın acısı, yelin hikkəsi
Ləçəyin qopardı, yarpağın yoldu.

Ərik ağacına bənzəyirəm mən,
Dəydi çiçək vaxtı uğurum daşa.
Kinayə yağırdı mənə göylərdən,
Girə bilməyirdim, qəmlə savaşa.

## GÜZGÜDƏKİ ADAMA

*A.Mirseyidə*

Çıxdım axır Ağdaşdan
sən tutub öz qolundan
Çıxdın ağdaşdan olan
gözləmə salonundan
Eynəksiz də görürdün,
adamların içini
Odur ki, çəkdin faraş
qardaş, burdan köçünü
Səni bu tezliklə doğmayacaqdır bir ana
bu əllidən bu yana
Bu, qar altında qalan sirr
qəriblər doğur Ərəş
Hər əlli yüz ildən bir
Yer ora qədərdir ki,
baxa bilir gözlərin.
Hərlənərsən qarşına çıxar ayaq izlərin
Nə qədər fürsətdi, yan
qara sevda eşqinə
Bu dünyanın yalanı nə, düzü nə.



Kaspi 2019.- 4-6 may.- S.23.